# QARA QARAYEV

**BİBLİOQRAFİYA**

***(Əlavələr və düzəlişlərlə elektron resurs)***

**BAKI - 2011**

## QARA QARAYEVİN ANADAN OLMASININ 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2008-ci ilin fevral ayında dahi Azərbaycan bəstəkarı, görkəmli alim-pedaqoq, ictimai xadim, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Əbülfəz oğlu Qarayevin anadan olmasının 90 ili tamam olur.

Qara Qarayevin yaradıcılığı Azərbaycan musiqi sənəti tarixinin parlaq səhifələrini təşkil edir. Klassik və müasir musiqinin uğurlu sintezini yaradaraq mədəniyyətimizin inkişafına dəyərli töhfələr vermiş bəstəkarın müxtəlif janrlı əsərləri XX əsr dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Zəmanəmizin görkəmli sənətkarının fəlsəfi məna və ümumbəşəri duyğuların zənginliyi ilə səciyyələnən böyük irsi müəllifinə dünya şöhrəti gətirməklə yanaşı, Azərbaycan professional musiqisinin beynəlxalq aləmdə tanınmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində müstəsna xidmətləri olmuş Qara Qarayevin 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Qara Qarayevin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 dekabr 2007-ci il

## GÖSTƏRİCİ HAQQINDA

Azərbaycan klassik musiqisinin inkişafında əvəzsiz xidmətləri olan bəstəkarlarımızdan biri də Qara Qarayevdir. "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərinin, "Leyli və Məcnun" simfonik poemasının, "Don Kixot" simfonik qravürünün və yüzlərlə müxtəlif janrlarda yazılmış dünya şöhrətli əsərlərin müəllifi olan Qara Qarayev Azərbaycan bəstəkarlıq məktəbinin inkişafına təsir göstərmiş, özünəməxsus yaradıcılıq yolu keçmiş, yeni nəfəs, yeni fikir gətirmişdir.

Azərbaycanın görkəmli bəstəkarı, pedaqoqu, ictimai xadimi, Azərbaycan və SSRİ Xalq artisti Qara Qarayev haqqında tərtib olunmuş bu biblioqrafik vəsait bəstəkarın həyat və yaradıcılığının bütün dövrlərini əhatə edir.

Qara Qarayev haqqında ilk göstərici 1969-cu ildə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında nəşr olunmuşdur. (Tərt ed. M.İbrahimova, A.İsazadə, X.Məmmədova; Red. L.V. Karagiçeva, R.A.Kazımov).

Növbəti biblioqrafik göstərici bəstəkarın 90 illiyi ilə əlaqədar olaraq M.F.Axundov adına Milli Kitabxana tərəfindən hazırlanmışdır. Vəsaitdə bəstəkarın not əsərləri, əlyazmaları, səsyazmaları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, həyat və yaradıcılığını əks etdirən ədəbiyyat öz əksini tapmışdır.

Biblioqrafiyada dünya şöhrətli bəstəkarın 1937-ci ildən 2008-ci ilin sentyabrınadək çap olunmuş əsərləri və onun haqqında dərc olunan materiallar əhatə olunmuşdur.

Qara Qarayevə həsr edilmiş bu fundamental biblioqrafiyada ədəbiyyat xronoloji qaydada qruplaşdırılmışdır. Xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilib. Göstəricidə Qara Qarayevin həyat və yaradıcılığının əsas tarixləri, Qara Qarayev haqqında görkəmli şəxsiyyətlərin fikirləri, kitabları və dövri mətbuatda gedən məqalələri, bəstəkar haqqında kitablar,

monoqrafiyalar, avtoreferat və dissertasiyalar, kinofilmlərə və dram tamaşalarına yazılmış musiqi əsərləri verilmişdir.

Vəsaitdə əsasən Azərbaycan və rus dillərində olan materiallar əhatə olunmuş və imkan daxilində dahi bəstəkarın xarici dillərdə dərc olunmuş əsərləri, habelə onun haqqında materiallar əhatə olunmuşdur.

Biblioqrafiya bəstəkarlar, müsiqişünaslar, tədqiqatçılar, Azərbaycan Dövlət Müsiqi Akademiyasının, musiqi profilli kolleclərin və orta ixtisas məktəblərinin tələbələri, kitabxanaçılar və müsiqi ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə vəsaitin sonunda müəlliflərin, sərlövhələrin, böyük bəstəkarın not əsərlərinin və əlyazmalarının əlifba göstəriciləri verilmişdir.

Göstərici haqqında rəy və təkliflərini göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir və arzu və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 29;
E-mail: contact@anl.az;
URL: www.anl.az

# Qara Qarayevin ölməz irsi

XX əsrin bəşəriyyətə bəxş etdiyi böyük şəxsiyyətlərdən biri bəstəkar Qara Qarayevdir. O, musiqimizdə gələcəyə yeni yollar açan novator sənətkar idi. İllər boyu onun parlaq musiqisi, çoxşaxəli musiqi fəaliyyəti, alovlu publisistikası Azərbaycan və eləcə də bütün Sovet musiqisinin inkişafına təsir göstərmişdur.

Qara Əbülfəz oğlu Qarayev Azərbaycan və SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur.

Qara Qarayev XX əsri musiqi termini ilə "molto accelerando e crescendo" kimi müəyyənləşdirmişdir. Bu terminin mənası hərəkəti sürətləndirib səslənməni gücləndirmək deməkdir. Qeyd edək ki, bəstəkarın özü həyatda bu tempə riayət edərək yazıb yaratmışdır. Qarayevin hər bir əsərinin premyerası musiqi həyatımızın xüsusi hadisəsinə, bayramına çevrilmiş, musiqimizdə bir dönüş yaratmışdır. Belə əsərlərdən "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərini, Üçüncü simfoniyanı və skripka üçün konsertini, "Don Kixot" simfonik lövhələrini, "Leyli və Məcnun" simfonik poemasını, "Çılğın Qaskoniyalı" musiqili komediyasını və başqa əsərlərini göstərmək olar. Bu, əlbəttə bəstəkarın yazdığı əsərlərin yalnız bir hissəsidir, hələ bir sıra əsərləri də tamamlanmamış, arxivində qalmışdır. Onlardan Xəzər neftçilərinin həyatına həsr edilmiş "Uşaqlarsız şəhər" oratoriyası, Anri Barbüsun əsəri əsasında yazdığı "Zəriflik" mono operası və bəstəkarın həyata keçməyən son planlarından – yeddi muğam əsasında yenə "Leyli və Məcnun" mövzusunda sintetik musiqili səhnə əsəri, tamamlanmamış Dördüncü simfoniya və s. "Müasirlik mənim qəlbimi daha çox həyacanlandırır" deyə etiraf edən bəstəkar məzmun, forma, musiqi dili etibarilə əsl mənada müasir musiqi əsərləri yaratmışdır. Onun yaradıcılığının əsas xüsusiyyəti Azərbaycan musiqi ənənələrinə əsaslanıb dünya musiqisinin son nailiyyətlərini mənimsəməsi və bu sənətlərin üzvi surətdə

birləşməsini, sintezini yaratmasıdır. Qarayev yaradıcılığının bu cəhətini onun müəllimi, böyük bəstəkar D.Şostakoviç belə qeyd edirdi: “Qara Qarayev mənim ən çox sevdiyim bəstəkarlardan biridir. Onun musiqisinin müvəffəqiyyətinin sirri isə milli ənənələri, klassik irslə, ən müasir musiqi formalarının parlaq, yalnız onun özünəməxsus tərzdə birləşdirilməsidir”.

Qarayevin musiqisi sözün əsl mənasında beynəlmiləl keyfiyyət daşıyan bir sənətdir. Bu musiqi milyonlarla ürəkləri hərarətilə, emosionallığı ilə fəth etmiş, müasirliyi, fəlsəfəliyi ilə düşündürmüşdür. Bu musiqi əsərləri ABŞ-də, İngiltərədə, Fransada, Almaniyada, Misirdə, Türkiyədə, Rusiyada, Polşada, Çexiyada, Rumıniyada və başqa bir çox ölkələrin səhnələrində uğurla səslənmişdir.

Bəstəkarın əsərləri üçün seçdiyi ədəbi mövzular da yalnız milli ədəbiyyatımızla məhdudlaşmırdı. O, yaradıcılığında Nizami, Səməd Vurğun, Rəsul Rza poeziyasıyla bərabər, Şekspir və Servantes, Puşkin və Ömər Xəyyam, Lermontov və Lope de Veqa obrazlarına müraciət etmiş, müasirləri olan Nazim Hikmət, Lenqston Hyuz, Vsevolod Vişnevski, Piter Abrahams kimi XX əsr sənətkarlarının əsərlərindən ilhamlanmışdır.

Qarayevin yaradıcılığının bir önəmli özəlliyini də göstərmək istərdik. Afrikadan Vyetnama qədər müxtəlif xalqların musiqi folkloru Qarayevin yaradıcılıq süzgəcindən keçib yeni keyfiyyət almışdır. Biz bəstəkarın müxtəlif xalqların həyatını əks etdirən, müxtəlif millətlərin musiqi folkloruna əsaslanan əsərlərini dinlədikdə onların məhz Azərbaycan bəstəkarı tərəfindən duyulub yazıldığını deyə bilərik. Bu cəhətdən bəstəkarın “İldırımlı yollarla” baletinin musiqisini, Alban rapsodiyasını, Vyetnam süitasını, “Don Kixot” simfonik lövhələrini, bir sıra dram əsərlərinə və kinofilmlərinə yazdığı musiqini misal gətirə bilərik. Bəstəkar özü də bu barədə belə yazırdı: “Bəzən yaradıclıqda milli ənənələr sövq-təbii meydana çıxır. Mən ispan, bolqar, vyetnam mövzuları əsasında musiqi yazıram. Mənə isə deyirlər ki, bu əsərlərdə mənim

milliyətimin, mənim Azərbaycan əllərimin izi qalır. Mən bunun necə baş verdiyini aydınlaşdıra bilmirəm və bu barədə heç düşünmürəm”.

Hər bir böyük sənətkar kimi Qarayevin yaradıcılığında da millilik özünəməxsus bir formada təzahür edir. İlk iri həcmli əsəri “Ürək mahnısı” kantatasında, “Leyli və Məcnun” simfonik poemasında, C.Hacıyevlə yazdığı “Vətən” operasında, “Yeddi gözəl” və “İldırımlı yollarla” baletində biz onun musiqisinin milliliyini aydın surətdə hiss etdiyimiz kimi, son illərdə yazdığı 3-cü simfoniyasında, skripka və orkestr üçün konsertində, fortepiano üçün yazdığı prelüdlərin son dəftərində və 12 fuqada da duyuruq. Bu əsərlərdə millilik müxtəlif şəkillərdə ifadə olunub ki, bu da təbiidir. Millilik özü dəyişməz bir keyfiyyət deyil, eyni bir bəstəkarın müxtəlif yaradıcılıq mərhələlərində də inkişaf edir, dəyişir.

Çox maraqlı və səciyyəvi haldır ki, bəstəkarın son əsərlərini eşidən Qərb musiqiçiləri dəfələrlə etiraf etmişlər ki, Qarayevin bu əsərləri Qərb “Seriyaçıları”nın əsərlərinə heç bənzəmir. Bu da təbiidir ki, dodekofoniya bəstəkar üçün heç vaxt bir məqsəd rolunu oynamamış, yalnız texniki vasitə idi. Elə ona görə son səhnə əsəri olan “Çılğın Qaskoniyalı” müziklində bəstəkar artıq bu vasitədən, bu üsuldan istifadə etməmişdir.

Hələ 1961-ci ildə Amerika Birləşmiş Ştatlarının Los-Anjelos şəhərində keçən Beynəlxalq musiqi festivalından qayıdan Qarayev öz təəssüratını ifadə edərək belə demişdir: “Biz onlardan əlli il geri qalmışıq”. Elə bundan sonra o, Qərbin musiqi sistemlərini, texnologiyasını öyrənməyə başlayır və bunun üçün çox vaxt, güc, enerji sərf edir.

Bu baxımdan alimin “Вопросы Литературы” jurnalındakı müsahibəsi ilə tanış olmaq maraqlıdır. Bəstəkar etiraf edir ki, müasir musiqi sistemlərinin, həmçinin dodekofoniyanın nəzəriyyə və təcrübəsinin əsaslarını öyrənmək üçün çox vaxt sərf edib. Lakin bu yazı texnikasını bəstəkar Şönberqdən (həmin texnikanın yaradıcısıdır – Z.S.) fərqli olaraq digər etik və estetik məqsədlər üçün istifadə etmişdir. O, yazır ki, “3-cü simfoniyada mən yeni dilin müasir dövrün ruhunu daha gözəl

əks etdirməyə qadir olduğunu deməyə çalışmışam. Bu dil yaradıcı individuallığı məhv etmir və musiqini milli özünəməxsusluqdan da məhrum etmir. Belə ki, Şönberq texnikasının qaydaları çərçivəsində 3-cü simfoniyada milli Azərbaycan mövzusu verilir. Mənə elə gəlir ki, bu çox şey deməkdir".

Qayaev müxtəlif illərdə, müxtəlif məqalə və çıxışlarında Azərbaycan musiqi mədəniyyətində Şərq və Qərbin sintezi, vəhdəti haqqında danışırdı. O, bu sintezi Şərq və Qərbin mücərrəd toqquşmasında deyil, onların milli mədəniyyətinin yaradıcı təcrübəsinin qarşılıqlı əlaqəsində, beynəlmiləl yaxınlığında görürdü.

Bu barədə başqırd yazıçısı R.Həkimova verdiyi müsahibədə Q.Qarayev Qərbin və Şərqin lap əvvəldən onun təhsilində, yaradıcılığında vəhdətdə olduğunu qeyd edirdi: "Axı mən oxumağa Bakıda Hacıbəyovda başlamışam, Moskvada Şostakoviçdə isə təhsilimi bitirmişəm. Ona görə Qərb və Şərq lap əvvəldən məndə bir vəhdət təşkil etmişlər. Mən sanki iki ananın oğluyam".

Müsahib Həkimovun Azərbaycan musiqisinin dünya musiqisinə nə dərəcədə inteqrasiya olması barədə sualına bəstəkar belə cavab vermişdi: "Bu bizik, bu da dünyanın nailliyyətləridir. Belə fikirləşmək düzgün deyil. Axı biz də bu dünyanın bir hissəsiyik və bizim bugünkü işimiz ümumdünya işinin bir hissəsidir".

Qara Qarayevin Üçüncü simfoniyası 1965-ci ildə yazılmış və ilk dəfə Moskvada böyük uğurla ifa olunmuşdur. Əsərin mərkəzində dayanan obraz Azərbaycan milli xarakterinin müasir mərhələsini əks etdirir. Xalqların azadlıq uğrunda mübarizəsi, dövrün yaraları – Xirosima və Osvensim, uzaq məmləkətlərin faciəsi, kosmosun fəthi, bir sözlə atom əsrinin bütün təzadları onu düşündürür. Belə mürtəkkəb müasir insan obrazını yaratmaq üçün asan, keçilmiş yollarla irəliləmək mümkün deyildi. Bəstəkarın musiqi dilindəki mürəkkəblik də məhz məzmunun xarakterindən doğurdu. Bəstəkar ən müasir vasitələrdən də məzmuna müvafiq olanları seçmiş, ən qəliz

səslənmələrədən qorxmamışdır. Üçüncü simfoniyada bəstəkar müasir dünyanın geniş panoramasını təsvir etməyə çalışmamışdır. O, müasir dünyanın problemlərinin konkret insan şüurunda əksini, insan xarakterində inikasını, insan obrazının süzgəcindən keçməsini göstərməyə çalışmışdır. Bəlkə elə buna görə də bəstəkar böyük simfonik orkestrə müraciət etməmişdir. O kamera orkestrinin imkanlarına əsaslanmış və bu imkanlardan böyük məharət və istedadla istifadə etmiş, yığcam, lakonik musiqi əsəri yaratmağa müvəffəq olmuşdur.

Qara Qarayevin  yaradıcılığında Vətən mövzusu bir sıra əsərlərin özəyini təşkil etmişdir. İkinci simfoniya, C.Hacıyevlə yazdığı "Vətən" operası, "Ürək mahnısı" kantatası, "Bizim partiya" , "Səadət mahnısı", "Azərbaycan" süitası belə əsərlərdəndir.

Bəstəkarın yaradıcılığının mərkəzində onun iki parlaq əsəri – "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri durur. Qarayev yaradıcılığını bu musiqisiz, bu əsərlərsiz təsəvvür etmək qeyri mümkündür. Yüksək humanizmlə, böyük ideyalarla aşılanmış bu baletlər sovet musiqi xoreoqrafiya sənətində yeni səhifə açmış və ümumdünya şöhrəti qazanmışdır.

Qarayev "Yeddi gözəl" baletində Azərbaycan ədəbiyyatının klassik irsinə, dahi Nizaminin humanist ideya və obrazlarına müraciət etmişdir. Baletdə Nizaminin eyniadlı poemasının süjet xətti deyil, şairin yaradıcılığının əsas istiqamətverici mövzusu, əxlaqi-etik mövzusu götürülmüş və ön plana çəkilmişdir. Ümumiyyətlə, Nizaminin humanist ideyaları və obrazları bəstəkarı dəfələrlə özünə cəlb etmişdir. Nizami yaradıcılığının istiqamətverici əxlaqi-etik mövzusu Qarayevin baletində böyük emosional qüvvə və psixoloji dəqiqliklə səslənmişdir. Parlaq teatral musiqi, relyef obrazlar, dramaturji konfliktin simfonik üsulla açılması, həyəcanlı musiqi xoreoqrafik faciənin əsas cəhətləridir. Baletin musiqisi əsl milli musiqidir, bəstəkar xalq musiqisinin xüsusiyyətlərindən geniş istifadə etmişdir. Baletin bir sıra obrazları leytmotiv sistemi ilə xarakterizə edilmişlər. Xalqın nümayəndəsi Aişənin Bəhram şaha olan yüksək məhəbbəti, onun faciəsi baletin əsas lirik

xəttidir. Aişə ilə bağlı olan musiqi parçaları baletin ən gözəl, valehedici səhifələridir. Balet 1952-ci ildə Bakıda böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu, sonra 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ongünlüyündə onun yeni tamaşası verilmişdi. Bəstəkarın 60 illiyi üçün baletin yeni quruluşu hazırlanmışdır.

Qarayev bu baletdən sonra bir sıra kinofilmlərə və dram əsərlərinə musiqi yazmışdır. Bunlardan "Xəzər dənizçiləri haqda dastana"a, "Vyetnam" sənədli kino filminə, V.Şekspirin Əzizbəyov adına Azərbaycan Dram Teatrında qoyulmuş "Qış nağılı"na və Nazim Hikmətin Moskvanın Jermolova Dram Teatrında oynanılan "Qəribə adam" pyesinə və s. göstərmək olar. Bu əsərlər arasında V.Vişnevskinin "Nikbin faciə" pyesinə yazdığı musiqi xüsusilə diqqətə layiqdir. Qarayevin musiqisiylə bu pyes 1955-ci ildə Puşkin adına Leninqrad Akademik Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Tamaşa böyük müvəffəqiyyət qazanmış və bir çox teatr səhnələrində, o cümlədən xaricdə oynanılmışdır. (Quruluşcu rejissor Tovstonoqov idi). Bu müvəffəqiyyətdə Qarayevin böyük rolu olmuşdur. Çünki bəstəkarın musiqisi tamaşanın ayrılmaz hissəsini təşkil edir. Bu musiqisiz həmin tamaşanı təsəvvür etmək mümükün deyil.

Qara Qarayev Leninqrad Opera və Balet Teatrının sifarişi ilə Cənubi Afrika yazıçısı Piter Abrahamsın eyni adlı romanı əsasında 1958-ci ildə ikinci baleti olan "İldırımlı yollarla" baletini tamamlayır. Böyük rus bəstəkarı Serqey Prokofyevin xatirəsini və yaradıcılıq prinsiplərini yüksək tutan bəstəkar bu baletini ona ithaf edir. Balet 1967-ci ildə Lenin mükafatına layiq görülmüşdür. "İldırımlı yollarla" baleti müasir və aktual mövzuda - müstəmləkə xalqlarının öz azadlıqları uğrunda mübarizəsinə həsr edilmişdir. İrqi bərabərsizlik əsərin özəyini təşkil edir. Onun qəhrəmanları öz azad sevgiləri, məhəbbətləri uğrunda mübarizədə məhv olurlar.

Qarayevin "İldırımlı yollarla" baletinin gözəl, lirik, ilhamlı musiqisini dinlədikdə Abrahamsın bu sözləri yada düşür: "Övladlar, bizim zəmanəmizin nəğməsini oxuyun, nifrət,

müharibə haqqında deyil, məhəbbət haqqında oxuyun". Bəstəkar bu sözləri baletə epiqraf seçərək əsərin girişində metso-sopranonun ifasında səsləndirir. "İldırımlı yollarla" baletinin novatorluğu yalnız mövzunun müasirliyində, aktuallığında deyil, bu mövzunun musiqidə necə şərh edilməsində, açılmasındadır. Qarayev uzun müddət Afrika xalqlarının musiqi folklorunu öyrənmiş, mənimsəmişdi. O, heç bir sitat gətirmədən baleti həmin musiqinin xarakter intonasiya və ritmləriylə zənginləşdirmişdi. Bəstəkar xoreoqrafiya sənətinin mühüm xüsusiyyətlərini saxlayaraq, bu musiqi əsasında geniş formalar, ümumiləşdirmələr yaratmağa müvəffəq olmuşdur.

"İldırımlı yollarla" baletindən sonra Qara Qarayev bir sıra kinofilmlərə və dram əsərlərinə parlaq musiqi yazmışdır. "Tarixin dərsi", "Bir məhəlləli iki oğlan", "Don Kixot", "Uzaq sahillərdə", "Xəzəri fəth edənlər" kimi filmlərə, Leninqradın Puşkin adına Dram Teatrı üçün M.Bulqakovun "Qaçış" pyesinə və Bakının Səməd Vurğun adına Rus Dram Teatrı üçün M.Lermontovun "Maskarad" dramına musiqi bəstələmişdi. Qarayevin kinofilmlərə və dram əsərlərinə yazdığı musiqidə o, müşaiyətçi kimi deyil, əsərlərin ideyasının, ruhunun, obrazlarının açıb göstərilməsində əsas vasitəçi kimi çıxış edir. Elə bil Qarayev həmin ideya ilə obrazların həyəcanı, əhval-ruhiyyəsiylə yaşayır. Bu cəhətlər məşhur rejissor Kozintsevin çəkdiyi "Don Kixot" filminə yazdığı musiqidə xüsusilə özünü biruzə vermişdir. Filmin rejissoru Kozintsevin Qarayevə göndərdiyi məktub bu cəhətdən maraqlıdır. O yazır: "Dünən bizdə televizorla "Don Kixotu"u göstərirdilər. Mən bu yolla öz filmlərimə baxmağı xoşlamıram. Ümumiyyətlə, köhnə filmlərimə baxmağı çox da sevmirəm. Ekranda artıq sağ olmayan çoxlu adam. Filmlər bəzi səbəblər üzündən bitməmiş görünür. Lakin bu səfər axıradək otaqdan getmək istəmədim. Səbəbi də ən çox sizin musiqiniz idi. Mən əvvəl də onu xoşlardım. Artıq çox illər keçmişdi, indi o mənə daha gözəl göründü. Siz öz musiqinizdə romanın əsl mahiyyətini qəribə bir güclə və dəqiqliklə duymusuz. Bundan yaxşı heç bir şey düşünmək olmazdı. Yəqin ki, bu, daxilinizdən gələn nə iləsə

uyuşub, yoxsa bu cür yaratmaq mümkün olmazdı". Qarayev sonralar da bu musiqi üzərində işləmiş və məşhur "Don Kixot" simfonik qravürlərini yazmışdır.

Son illərdə Qarayev oğlu bəstəkar Fərəc Qarayevlə birlikdə məşhur ispan rəssamı Qoyyanın həyatına həsr edilmiş filmə musiqi yazmışdır. Yenə digər xalqın musiqi folkloru, onun öyrənilməsi, mənimsənilməsi və yaradıcılıq süzgəcindən keçirilməsi!

Qara Qarayevin yaradıcılığında fortepiano üçün yazdığı əsərlər xüsusi yer tutur. Hələ 1937-ci ildə o, fortepiano üçün "Sarskoye selo heykəli" adlı pyes yazmışdır.

Bu pyesin taleyi uğurlu olmuş, pianoçuların sevimli əsərlərindən birinə çevrilmişdir. Bu musiqi lövhəsi böyük rus şairi A.S.Puşkinin ölümünün 100 illiyinə həsr edilmişdir. Pyesdəki obrazlar rəngarəngdir, qabarıqdır, harmonik cəhətdən əlvandır, impressionist çalarlarla diqqəti cəlb edir. Bu əsər ilk dəfə müəllifin ifasında Puşkinə həsr edilmiş yubiley konsertində səslənmişdir.

Fortepiano əsərləri arasında 24 prelüd xüsusi əhəmiyyət kəsb etmişdir. Sikl dörd dəftərdən ibarətdir və hər dəftərdə altı prelüd cəmlənmişdir. Hər dəftər siklin bitmiş bir hissəsi kimi qəbul olunur və həm də bütün siklin bir mərhələsi sayılır. Bu əsərin müəyyən proqramı yoxdur, lakin hər dəftər, hətta prelüd müəyyən bir obrazı təsvir edir. Prelüdlər bir-birilə təzadlıq əsasında qurulmuşdur. Birinci dəftərdə əsasən janr-məişət obrazları təsvir edilmiş, ikinci dəftər üçün lirik, dramatik, patetik hisslər xasdır. Axırıncı iki dəftərdəki prelüdlər dərin psixoloqizmi və fəlsəfəliyi ilə fərqlənir. Bu prelüdlərdə emosionallıq, gərginlik artır, musiqi dilində mürəkkəblik və polifoniklik çoxalır. Maraqlıdır ki, hər dəftərdəki prelüdlərlə bəstəkarın həmin dövrdə yazdığı digər janrlarda olan əsərləri arasında bir yaxınlıq, ümumilik duyulur. Məsələn, ikinci dəftərdəki prelüdlərin "Yeddi gözəl" baletinin obrazları və diliylə, üçüncü dəftərdəki prelüdlərin "İldırımlı yollarla" baletinin musiqisiyilə, dördüncü dəftərdəki prelüdlərin isə bəstəkarın son illərdə yazdığı əsərləri ilə yaxınlığı hiss olunur.

Bütün sikl üçün əlvanlıq, polifoniklik, gözəllik, ritmik orijinallıq xasdır.

Gördüyümüz kimi, bəstəkar musiqinin müxtəlif janrlarında bir-birindən dəyərli, rəngarəng əsərlər yaratmış, musiqinin müxtəlif janrlarında özünün bəstəkarlıq məharətini, istedadını göstərmişdir.

Qara Qarayev böyük bəstəkar olmaqla bərabər, həm də zəngin dünya görüşünə, ensiklopedik biliyə, fəlsəfi ümumiləşdirmələrə, geniş erudisiyaya, iti zəkaya malik alim, mütəfəkkir idi. O, dünya musiqi elminin son nailiyyətlərini böyük dəqiqliklə öyrənmiş, mənimsəmiş, dünya musiqisinin, eləcə də ədəbiyyatının, rəssamlığının, teatrının gözəl bilicisi olmuşdur. Alimin sırf musiqi elminə, nəzəriyyəsinə, estetikaya aid xüsusi tədqiqatı olmasa da, onun zəngin elmi-publisistik irsi, qırx il ərzində yazdığı çoxlu məqalələri, resenziyaları, məruzə və çıxışları, müsahibələri, incəsənətin bir sıra vacib problemləri – xəlqilik, millilik, beynəlmiləlçilik, ənənə, novatorluq, musiqidə faciə və s. haqqında fikirləri, düşüncələri, görüşləri, elmi müddəaları, ona böyük mütəfəkkir alim kimi Azərbaycan musiqi elmində möhkəm və şərəfli yer tutmasına haqq qazandırır. Təsadüfi deyil ki, müəllimi Üzeyir Hacıbəyovdan sonra Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü məhs Qara Qarayev seçilmişdir.

Alim bir çox xarici ölkələrdə keçən beynəlxalq konfranslarda və simpoziumlarda sovet musiqisinin ləyaqətli və səlahiyyətli nümayəndəsi və elçisi kimi dəfələrlə çıxış etmişdir. Onun son çıxışlarından biri də İtaliyada “Sovet musiqisinin vacib prinsipləri” mövzusunda etdiyi məruzəsi olmuşdur. O, həm də parlaq natiq və sərrast söz ustası idi. Alimin ehtiraslı, alovlu çıxışları, musiqimizin ən aktual problemləri ilə zəngin məruzələri heç kəsi laqeyd, etinasız qoymurdu. Onun hər çıxışı, məruzəsi böyük auditoriya toplayaraq, musiqi həyatımızda xüsusi hadisəyə çevrilirdi. Bu barədə alimin pianoçu və bəstəkar Vaqif Mustafazadənin, eləcə də Rafiq Babayevin iştirakı ilə apardığı caz haqqında maraqlı mühazirələrini, bəstəkarların xüsusən üçüncü və dördüncü

qurultaylarında etdiyi dolğun məruzələrini, müasir Qərb musiqisinin son nailiyyətləri haqqında söhbətlərini göstərmək istərdim. Bura Qarayevin Sönberq, Berq, Vebern, Messian, Lütoslavski, Stravinski və başqa bu kimi müasir Qərb bəstəkarları haqqında tələbələrinə verdiyi bilikləri, məlumatları da əlavə etmək yerinə düşərdi.

Axı Qara Qarayev xüsusi istedada malik pedaqoq, müəllim idi. O, 1946-cı ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında D.Şostakoviçin bəstəkarlıq sinfini bitirdikdən sonra, orada qalıb təhsilini davam etdirmək istəmişdir. Lakin müəllimi Şostakoviç buna etiraz edərək onun Bakıya qayıdıb konservatoriyada bəstəkarlıqdan dərs deməsini məsləhət görmüşdür.

Şostakoviç demişdir: "Bəsdir oxudunuz, indi artıq özünüz dərs deməlisiniz". Bu doğru məsləhət idi.

Qara Qarayev saysız-hesabsız tələbə yetişdirdi. Bu gün onun tələbələri yüksək professionallığı və individuallığı, xüsusi, özlərinə məxsus dəst-xətti ilə seçilirlər. Bu Qarayev məktəbinin əsas xüsusiyyəti idi. Vasif Adıgözəlov, Arif Məlikov, Xəyyam Mirzəzadə, Firəngiz Əlizadə, Fərəc Qarayev – bunların heç biri bir-birinə bənzəmir, lakin onların hamısı Qara Qarayev bəstəkarlıq məktəbinin yetişdirmələri, bu məktəbin parlaq nümayəndələridir.

Qara Qarayev həm də istedadlı ictimai xadim idi. O, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuş, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri və SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi, dəfələrlə SSRİ Ali Sovetinə deputat (IV, VI,VII çağrış) seçilmiş, Sülh uğrunda Müdafiə Komitəsinin üzvü, P.İ.Çaykovski adına Skripkaçıların İkinci Beynəlxalq müsabiqəsinin jüri üzvü və s. ictimai vəzifələrdə çalışmışdır.

Qara Qarayev cəmi 64 il yaşamışdır (1918-1982), lakin çox işlər görmüşdür.

Qara Qarayevin fikrincə, "Əgər insanların həyatı onların gördüyü işlərə uyğun uzansaydı:- insanların xoşbəxtliyi

naminə, həyatın yaxşılaşması naminə, tərəqqinin xeyrinə, yaxşılığın xeyrinə,- bu ədalətli iş olardı".

Qara Qarayevin yüksək humanist ideyalar tərənnüm edən ilhamlı musiqisi bu gün də yaşayır və səslənir, dünyanı şəhər-şəhər, ölkə-ölkə gəzir, milyonlarla ürəkləri emosionallığı, hərarətiylə fəth edir, qəlbləri qürur və iftixar hissi ilə doldurur. Qara Qarayevin irsi ölməzdir, həmişəyaşardır!

**Zemfira Səfərova,**
*sənətşünaslıq doktoru, professor, Azərbaycanın Əməkdar incəsənət xadimi, Əməkdar elm xadimi, AMEA-ın müxbir üzvü*

## QARA QARAYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1918** | - Qara Əbülfəs oğlu Qarayev 1918-ci il, fevralın 5-də Bakı şəhərində məşhur həkim, təbabət professoru Ə.F.Qarayevin ailəsində anadan olmuşdur. |
| **1930** | - Azərbaycan Dövlət Konservatoriyasının nəzdində fəaliyyət göstərən Bakı musiqi fəhlə fakültəsinin fortepiano sinfinə daxil olmuşdur. |
| **1935** | - Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində professor L.İ.Rudolfun sinfində təhsil almışdır. Təhsil müddətində professor Ü. Hacıbəyovdan Azərbaycan xalq musiqisinin əsasları üzrə dərs almışdır. |
| **1937** | - Azərbaycan Bəstəkarlar İttifaqına üzv seçilmişdir. |
| **1938** | - Moskva Dövlət Konservatoriyasının tələbəsi olmuşdur. (Professor A.P.Aleksandrovun sinfində);<br>- İlk böyük əsərini -xor, simfonik orkestr və rəqs ansamblı üçün Rəsul Rzanın sözlərinə “Könül mahnısı” kantatasını bəstələmişdir;<br>- Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur. |

| | |
|---|---|
| **1941** | - M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri vəzifəsində işləmişdir. |
| **1943** | - Birinci simfoniyanı yazmışdır. |
| **1944** | - Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyəti sədrinin müavini seçilmişdir;<br>- "Qafqazın müdafiəsi uğrunda" medalı ilə təltif edilmişdir. |
| **1946** | - P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında D.D.Şostakoviçin bəstəkarlıq sinfini bitirmişdir;<br>- Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq sinfində müəllim işləmişdir;<br>- SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi seçilmişdir;<br>- "Vətən" operasına görə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. (Cövdət Hacıyevlə birlikdə). |
| **1948** | - SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir;<br>- Azərbaycan Dövlət Konservatoriyasının dosenti olmuşdur;<br>- "Leyli və Məcnun" simfonik poemasına görə Dövlət mükafatına layiq görülmüşdür. |
| **1949** | - Ü.Hacıbəyov adına İncəsənət İnstitutunun musiqi bölməsinin rəhbəri seçilmişdir. |

| | |
|---|---|
| **1950** | - Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur. |
| **1952** | - Sülh uğrunda Müdafiə Komitəsinin üzvü seçilmişdir. |
| **1953** | - Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri seçilmişdir. |
| **1955** | - Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür;<br>- Azərbaycan SSRİ Ali Sovetinin deputatı (IV çağırış) seçilmişdir. |
| **1956** | - Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. |
| **1957** | - Birinci Ümumittifaq Sovet filmləri festivalının laureatı ("Bir məhəlləli iki oğlan" kino musiqisinə görə) olmuşdur. |
| **1958** | - Azərbaycan SSR-nin Xalq artisti fəxri adını almışdır;<br>- İkinci Ümumittifaq Sovet filmləri festivalının laureatı ("Uzaq sahillərdə" kinofilminin musiqisinə görə) olmuşdur. |
| **1959** | - SSRİ Xalq artisti fəxri adını almışdır;<br>- Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| **1961** | - Los-Anjelosda keçirilən Beynəlxalq musiqi festivalının iştirakçısı olmuşdur;<br>- Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **1962** | - SSRİ Ali Sovetinə deputat seçilmişdir. (VI çağırış);<br>- Azərbaycan Bəstəkarlarının İkinci Qurultayının nümayəndəsi olmuşdur;<br>- SSRİ Bəstəkarlar İttifaqının katibi seçilmişdir;<br>- P.İ.Çaykovski adına skripkaçıların İkinci Beynəlxalq müsabiqəsinin juri üzvü olmuşdur. |
| **1963** | - "Yeddi gözəl" baleti Birləşmiş Ərəb Əmirliklərində səhnəyə qoyulmuşdur. |
| **1965** | - Kamera orkestri üçün məşhur 3-cü Simfoniyanı bitirmişdir;<br>- M.F.Axundov adına Respublika mükafatı laureatı ("Antoni və Kleopatra" dram əsərinə bəstələdiyi musiqiyə görə) olmuşdur. |
| **1966** | - SSRİ Ali Sovetinin deputatı (VII çağırış) seçilmişdir. |
| **1967** | -"İldırımlı yollarla" baletinə görə Lenin mükafatına layiq görülmüşdür. |
| **1969** | - III Simfoniyası Yaponiyada səslənmişdir. |
| **1971** | - Moskvada açılan Beynəlxalq Musiqi Konqresinin yekun konsertində III Simfoniya böyük uğur qazanmışdır. |
| **1973** | - "İldırımlı yollarla" baleti Odessa Opera və Balet Teatrında səhnəyə qoyulmuşdur. |

**1975** - Leninqradda yaradıcılıq gecəsi- konserti keçirilmişdir.

**1976** - III Simfoniya Praqa şəhərində uğurla səsləndirilmişdir.

**1978** - 60 illiyi münasibətilə Moskvada müəllif konserti təşkil edilmişdir;
- Yaradıcılığına həsr olunmuş televiziya filmi çəkilmişdir;
- SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür;
- Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əlirza oğlu Əliyev bəstəkara təntənəli surətdə Sosialist Əməyi Qəhrəmanının simvollarını: Lenin ordeni və "Oraq və çəkic" qızıl medalını təqdim etmişdir.

**1979** - "Don Kixot" filminə musiqi bəstələmişdir.

**1982** - Mayın 13-də Moskva şəhərində vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur.

## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN QARA QARAYEV HAQQINDA FİKİRLƏRİ

Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Qara Qarayevin adı mütəfəkkir alim, görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yazılmışdır. Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai xadim olan Qara Qarayev həmişə və hər işdə alovlu-musiqiçi tribundur. Qara Qarayevin adı, onun musiqisi ölməzdir. İllər, on illər keçəcək, bizim kimi yeni-yeni nəsillər də gözəlliyi Qara Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər.

***Heydər Əliyev,***
**Azərbaycan xalqının**
**ümummilli lideri**

Zəmanəmizin görkəmli sənətkarının fəlsəfi məna və ümumbəşəri duyğuların zənginliyi ilə səciyyələnən böyük irsi müəllifinə dünya şöhrəti gətirməklə yanaşı, Azərbaycan professional musiqisinin beynəlxalq aləmdə tanınmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

***İlham Əliyev ,***
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Qara Qarayevin musiqisi əsl müasir musiqidir. Bizim günlərin musiqisidir, adamların kosmosu fəth etməsi dövrünün musiqisidir. Bu musiqidə günəş və cənub ehtirası var, ay və şimal romantikası var.

***Nazim Hikmət,***
**türk şairi**

Q.Qarayevin yaratdığı musiqi təkcə bərəkətli Azərbaycan torpağının, onun orijinal mədəniyyətinin inciləri deyil, bütün dünya musiqisinin bəzəyidir. Q.Qarayev bir də ona görə ölməzdir ki, tərbiyə etdiyi bəstəkarların böyük bir dəstəsini

qoyub getmişdir. Həmin bəstəkarlar onun işini davam etdirəcəklər.

***Fikrət Əmirov,***
**bəstəkar, SSRİ Xalq artisti**

Qarayev görkəmli şəxsiyyət idi. Q.Qarayevin musiqisi, onun xeyirxah, gülər gözləri həmişə sevinc, mehribanlıq, səmimiyyət və müdriklik saçırdı. Müasir bəstəkarlıq məktəbinin layiqli başçısı olan Q.Qarayev öz ideyalarını, fikirlərini, elmə, incəsənətə baxışlarını səxavətlə başqaları ilə bölüşürdü. Q.Qarayevin musiqisi onun həyatının -sənətkar həyatının, parlaq, dolğun və istedadlı insan həyatının dəqiq inikası idi.

***Niyazi,***
**dirijor, SSRİ Xalq artisti**

Biz Q.Qarayevin adını müasir incəsənətin ən yaxşı, ən görkəmli xadimləri sırasında çəkirik. O, öz yaradıcılığı ilə Azərbaycan musiqisi üçün yaxın və uzaq ölkələrin ən böyük teatrlarına, ən yaxşı konsert səhnələrinə yol açmışdır. Bəstəkar öz xalqının musiqisini dünya musiqi mədəniyyəti orbitinə çıxarmışdır. Onun yaradıcılıq fəaliyyətinin tarixi əhəmiyyəti də bundadır, Qarayev dünya incəsənətini öz xalqının musiqisi ilə, özünün təkrarsız, orijinal istedadı və böyük sənətkarlığı ilə zənginləşdirmişdir.

***D.Kabalevski,***
**bəstəkar, SSRİ Xalq artisti**

Q.Qarayev mənim ən çox sevdiyim bəstəkarlardandır. Onun musiqisinin müvəffəqiyyətinin sirri xalq ənənələrini klassik irsin ən müasir musiqi formalarında parlaq istedadla, ancaq onu özünə xas olan tərzdə birləşdirilməsindədir.

***Dmitriy Şostakoviç,***
**professor, bəstəkar, SSRİ Xalq artisti**

Azərbaycanın görkəmli bəstəkarı Q.Qarayevin musiqisi sovetlər ölkəsinin çoxmillətli mədəniyyətində ən parlaq hadisələrdən biridir. Onun təkrarolunmaz fərdi dəsti-xəttinin fərqləndirici xüsusiyyəti əsərlərində milli və beynəlmiləl keyfiyyətləri üzvi şəkildə birləşdirməsindədir.

***Tixon Xrennikov,***
**bəstəkar, SSRİ Xalq artisti**

Dərin milli sənətkar olan Qarayev milli məhdudluqdan tamamilə uzaqdır. Ü.Hacıbəyovla birlikdə onu cəsarətlə müasir Azərbaycan musiqi mədəniyyətinin banisi adlandırmaq mümkündür. Müəlliminin ənənələrini davam etdirən Qarayev sözün əsl mənasında bütün janrlarda yaradır... Azərbaycan musiqisində bu janrların çoxunu əməli surətdə məhz Q.Qarayev kəşf etmişdir. Ümumiyyətlə, onun yaradıcılığı milli musiqi mədəniyyəti üçün elə bil yeni pilləyə, yeni keyfiyyətə keçiddir.

Azərbaycanın yeni musiqisinin dünya meydanına çıxması Qarayevin adı ilə qırılmaz surətdə bağlıdır. O, yeni milli bəstəkarlıq məktəbi yaratmışdır.

***Rodion Şedrin,***
**bəstəkar, SSRİ xalq artisti**

Q.Qarayevin musiqisi, onun istedadı, pedaqoqluq məharəti, musiqi haqqındakı dərin fikirləri, ümumiyyətlə, gərgin əməyi keçmiş sovet mədəniyyəti xəzinəsinə möhkəm daxil olmuşdur. Biz hamımız uzun müddət bu xəzinədən bəhrələnəcək, bilik əxz edərək ilham alacağıq.

***Q.Q.Paman,***
**Latviyanın Əməkdar incəsənət xadimi**

Q.Qarayev milli mədəniyyətin inkişafında yeni yollar açan cəsarətli, novator sənətkardır. O, geniş yardıcılıq vüsətinə malik ustaddır.

***Nikolay Tixonov,***
**rus şairi**

Onun musiqisi ilə görüş həmişə böyük sevinc gətirirdi, eyni zamanda mürəkkəb həyat problemləri haqqında dərin düşüncələr doğururdu. Zaman xatirələri soldurmağa qadir deyildir... İllər, on illər keçəcək, lakin yeni-yeni nəsillər Q.Qarayev musiqisinin zəngin xəzinəsinə qovuşmaq və ondan heç vaxt ayrılmamaq üçün həmişə canlı yaradıcılıq çeşməsinə gələcəklər.

***Nodar Dumbadze,***
**gürcü yazıçısı**

Qarayevin yaradıcılığı sadəcə olaraq orijinal istedad sahibinin görkəmli əsərləri deyildir. Bu, XX əsr musiqi sənətinin zirvələrindən biridir, özündə dövrün yüksək ideallarını, vətəndaşlığı və vətənpərvərliyi təcəssüm etdirən hadisədir.

***H.Abdullayev,***
**akademik**

Onun hər bir əsəri Azərbaycan musiqisinin inkişafında mühüm mərhələ olmuş, gənc musiqiçilər üçün geniş üfüqlər açmışdır.

Q.Qarayevin novatorluğu onun milli və dünya musiqi sənətində təşəkkül tapmış klassik ənənələrə ən dərin hörmətindən irəli gəlir. Bəstəkarın yeni-yeni axtarışlar üçün möhkəm təməl olan cəsarətli, qeyri-adi üsullarının yaradıcılıq ölməzliyi də bundan ibarətdir.

***Elmira Abasova,***
**professor, Əməkdar**
**incəsənət xadimi**

Qarayev musiqisi ömrümüzün hər çağında könlümüzü ümidlə, qürurla, qüvvətlə doldururdu, ovundururdu, bizə dünyanı izah edirdi, gələcəyə inandırmağa çağırırdı.

Q.Qarayev mədəniyyətimizdə gələcəyin səfiri idi, sabahın elçisi idi və musiqimiz, musiqiçilərimiz, musiqi dinləyicilərimiz inkişaf edib irəlilədikcə qarşıdakı zirvələrdə həmişə Q.Qarayevlə rastlaşacaqlar.

***Anar,***
**Xalq yazıçısı**

Q.Qarayev dünya miqyasında adlı-sanlı bəstəkardır. Onun musiqisi öz vüsəti, forma kamilliyi ilə dinləyicini həmişə valeh edir. Bəstəkarın nəcib ideallarla -humanizm, beynəlmiləlçilik idealları ilə aşılanmış yaradıcılığının dinləyicilər tərəfindən rəğbətlə qarşılanması geniş kütləyə məlumdur. Mən bunu İstanbulda konsert zamanı bir daha yəqin etdim. Orada yerli simfonik orkestrin ifasında "İldırımlı yollarla" baletindən məşhur süita əzəmətlə səsləndi.

Qarayevin vəfatı təkcə ölkə musiqi mədəniyyəti üçün deyil, eləcə də bütün dünya musiqi mədəniyyəti üçün də ağır itkidir. Artıq Qarayev həyatda yoxdur. Ancaq onun musiqisi ölməzdir.

***Gülay Uğrata,***
**türk pianoçusu**

Müasirlik bəstəkarlarımızın diqqət mərkəzində durmalıdır. Bunu bizdən xalqımız və həyatımız tələb edir. Müasir həyatımızı tərənnüm edək -Q.Qarayevin bu sözləri sadəcə bir şüar deyil, əsl yaradıcılıq proqramıdır, bir bəstəkarı dövrümüzə layiq parlaq sənət nümunələri yaratmağa çağıran yaradıcılıq proqramıdır.

Biz Q.Qarayev musiqisində bəşəriyyəti tərəqqiyə çağıran müasir bəstəkarın alovlu səsini həmişə eşidir və eşidəcəyik.

***Azər Rzayev,***
**professor, bəstəkar,**
**Əməkdar incəsənət xadimi**

## ƏSƏRLƏRİ

### 1945

**1. Nənni mahnısı** [Not]: Skripka və fortepiano üçün //Azərbaycan bəstəkarlarının əsərlərindən pyeslər məcmuəsi.- B., 1945.- S. 22-25.

### 1946

**2. Sonatina** [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1946.- 18 s.

### 1949

**3. Gürcüstan təpələrində:** Mən səni sevirdim [Not]: Fortepiano ilə oxumaq üçün [A.S.Puşkinin sözlərinə yazılmış Azərbaycan kompozitorlarının romansları: 1799-1949].- B.: Azmusnəşr, 1949.- 9 s.

**4. Leyli və Məcnun** [Not]: Simfonik poema: Böyük simfonik orkestr üçün partitura.- M.-L.: Muzqiz.- 1949.- 52 s.

**5. Mərdanın ariyası** [Not]: "Vətən" operasından /Q.Qarayev, C.Hacıyev; Söz. M.Rahimindir.- B.: Azmusnəşr, 1949.- 12 s.

### 1950

**6. Altı uşaq pyesi** [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1950.- 15 s.

**7. Aslanın ariozası** [Not]: ["Vətən" operasından] /Q.Qarayev, C.Hacıyev; Söz. M.Rahimindir.- B.: Azmusnəşr, 1950.- 21 s.

**8. Aşığın Stalin haqqında mahnısı** [Not]: "Vətən" operasından /Qarayev Q., C.Hacıyev; Söz. M.Rahimindir.- B.: Azmusnəşr, 1950.- 9 s.

**9. Dilbərin ariyası** [Not]: "Vətən" operasından /Q.Qarayev, C.Hacıyev; Söz. M.Rahimindir.- B.: Azmusnəşr, 1950.- 10 s.

**10. Marş** [Not]: Tar və fortepiano üçün köçürmə.- B.: Azmusnəşr, 1950.- 6 s.

**11. "Yeddi gözəl"** baletindən süita [Not]: Böyük simfonik orkestr üçün.- Partitura.- M.-L.: Muzqiz, 1950.- 124 s.

**1951**

**12. Xoşbəxtlik mahnısı** [Not]: [kantatasından] //Azərbaycan bəstəkarları. Qarışıq xor və fortepiano üçün əsərlər.- B., 1951.- S. 31-43.

**13. Sülh haqqında pioner mahnısı** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. Z.Cabbarzadənindir.- B.: Azmusnəşr, 1951.- 5 s.

**1952**

**14. 24 prelüd** [Not]: Fortepiano üçün: I dəftər [I-VI].- B.: Azmusnəşr, 1952.- 13 s.

**15. 24 prelüd** [Not]: Fortepiano üçün: II dəftər [VII-XII].- B.: Azmusnəşr, 1952.- 13 s.

**1953**

**16. Laylay** [Not]: Skerso: Skripka və fortepiano üçün /Qarayev Q; Hacıyev C.- M.: Muzqiz, 1953.- 12 s.

**17. Marş** [Not]: Partitura və səslər.- B.: Azmusnəşr, 1953.- 23 s.

**18. Rəqs** [Not]: "Vətən" operasından /Tar ilə fortepiano üçün köçürmə.- B.: Azmusnəşr, 1953.- 9 s.

**19. Vals** ["Yeddi gözəl" baletindən]: [Not]: Fortepiano üçün asanlaşdırılmış köçürmə A.Babayevindir.- B.: Azmusnəşr, 1953.- 7 s.

## 1954

**20. Alban rapsodiyası** [Not]: Böyük simfonik orkestr üçün.- Partitura.-B.: Azmusnəşr, 1954.- 64 s.

**21. Marş** [Not]: Partitura.- B.: Azmusnəşr, 1954.- 24 s.

**22. "Yeddi gözəl" baletindən** fraqmentlər [Not]: Skripka yaxud alt ilə fortepiano üçün köçürənləri M.Reytix və G.Burşteyn.- B.: Azmusnəşr, 1954.- 38, 22 s.

Məzmunu: 1. Adajio: 2. Çin gözəli; 3. Aişənin rəqsi; 4. Gözəllər gözəli; 5. Slavyan gözəli; 6. Hind gözəli; 7. Vals.

## 1955

**23. "Vyetnam" kinofilmindən** iki marş [Not]: Nəfəsli orkestr üçün.- Partitura.- M.: Muzqiz, 1955.- 127 s.

## 1956

**24. "Yeddi gözəl" baletindən** seçilmiş parçalar [Not]: Fortepiano üçün asanlaşdırılmış köçürmə Z.Stelnikindir.- B.: Azmusnəşr, 1956.- 32 s.

## 1957

**25. 24 prelüd** [Not]: Fortepiano üçün. III dəftər [XIII-XVIII].- B.: Azmusnəşr, 1957.- 15 s.

## 1958

**26. Sarskoye selo heykəli** [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1958.- 11 s.

## 1959

**27. "Yeddi gözəl" baletindən** vals [Not]: Partitura və səslər.- M.: Sovetskiy kompozitor, 1959.- 232 s.

## 1960

**28. Gənclik mahnısı** [Not]: "Dənizi fəth edənlər" kinofilmindən: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1960.- 7 s.

**29. "İldırımlı yollarla" baletindən** I süita [Not]: Partitura.- M.: Sovetskiy kompozitor, 1960.- 99 s.

**30. "İldırımlı yollarla" baletindən** II süita [Not]: Partitura.- M.: Sovetskiy kompozitor, 1960.- 147 s.

**31. Kiçik vals** [Not]: Skripka və fortepiano üçün.- M.: Sovetskiy kompozitor, 1960.- 27 s.

## 1961

**32. İki pyes** [Not]: Skripka ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1961.- 22 s.

**33. Kvartet** [Not]: İki skripka, alt və violonçel üçün.- B.: Azmusnəşr, 1961.- 35 s.

## 1962

**34. Adajio**; **Hind rəqsi** [Not]: "Yeddi gözəl" baletindən: Alt ilə fortepiano üçün.- M.: Muzıka, 1962.- 13 s.

**35. Vals** [Not]: "Yeddi gözəl" baletindən: Fortepiano üçün.- L.: Muzqiz.- 1962.- 11 s.

## 1963

**36. Vals** [Not]: "Yeddi gözəl" baletindən: Truba və fortepiano üçün.- M.: Muzqiz, 1963.- 22 s.

## 1964

**37. Don Kixot** [Not]: Simfonik qravürlər: Fortepiano üçün köçürmə.- B.: Azərnəşr, 1964.- 30 s.

**38. İki pyes** [Not]: Skripka, violonçel və fortepiano üçün.- B.: Azərnəşr, 1964.- 12 s.

**39. 24 prelüd** [Not]: Fortepiano üçün: IV dəftər [XIX-XXIV].- B.: Azmusnəşr, 1964.- 17 s.

**40. Zamanın bayraqdarı** [Not]: Xor ilə simfonik orkestr üçün /Xor ilə fortepiano üçün köçürəni F.Qarayev.- B.: Azərnəşr, 1964.- 17 s.

## 1965

**41. Altı uşaq pyesi** [Not]: Fortepiano üçün.- B.: Azərnəşr, 1965.- 14 s.

**42. "Yeddi gözəl" baletindən** qızların rəqsi və prelüd [Not] /Fortepiano üçün köçürəni A.Zamanova.- M.: Muzıka, 1965.- 7 s.- [Pianoçunun kütləvi kitabxanası].

## 1966

**43. Don Kixot** [Not]: Simfonik qravürlər: Partitura.- B.: Azərnəşr, 1966.- 78 s.

**44. "İldırımlı yollarla"** baletindən səhnə və adajio [Not]: Nəfəsli orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1966.- 46 s.

**45. Mən sizi sevirdim** [Not] /Söz. A.S.Puşkinindir //Azərbaycan bəstəkarlarının seçilmiş romansları: fortepiano ilə oxumaq üçün.- B.:Azmusnəşr, 1966.- 13 s.

**46. Sonata** [Not]: Skripka ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1966.- 28 s.

## 1968

**47. Birinci simfoniya** [Not]: Simfonik orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1968.- 163 s.

**48. "Xəzər neftçiləri haqqında** dastan" kinofilmindən dəniz neftçilərinin mahnısı [Not]: Fortepianoda oxumaq və xor üçün.- B.: Azərnəşr, 1968.- 6 s.

**49. Leyli və Məcnun** [Not]: Simfonik poema: Böyük orkestr üçün. 2-ci nəşri. Partitura.- B.: Azmusnəşr, 1968.- 56 s.

**50. Üç prelüdiya** [Not] //Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri: Skripka [alt, violonçel] və fortepiano üçün: 2-ci dəftər.- B.: Azərnəşr, 1968.- S.3.

**51. Üçüncü simfoniya** [Not]: Kamera orkestri üçün.- Partitura.- M.: Sovetskiy kompozitor 1968.- 110 s.

**1969**

**52. Pyeslər** [Not]: Skripka və fortepiano üçün köçürmə.- M.: Muzıka, 1969.- 26 s.

**1970**

**53. İldırımlı yollarla** [Not]: 3 pərdəli, 8 şəkilli balet Fortepiano üçün köçürmə.- M.: Muzıka, 1970.- 160 s.

**54. Kiçik vals** [Not]: Fortepiano üçün //Pyeslər: Fortepiano üçün.- M., 1970.- S. 20-21.

**55. Konsert** [Not]: Skripka ilə orkestr üçün //Klavir.- M.: Muzıka, 1970.- 38, 15 s.

**1971**

**56. Xəzər neftçilərinin mahnısı** [Not]: /Söz. M.Svetlovundur //Azərbaycan mahnıları: Azərbaycan bəstəkarlarının vokal əsərləri.- Kiyev; 1971.- S. 22-30.

**1972**

**57. Yeddi gözəl** [Not]: 3 pərdə 8 şəkilli, proloqla balet. Fortepiano üçün köçürmə.- M.: Sovetskiy kompozitor, 1972.- 143 s.

## 1973

**58. Altı uşaq pyesi** [Not]: Fortepiano üçün.- B.: Azərnəşr, 1973.- 13 s.

**59. "Don Kixot" simfonik** qravürlərindən fraqmentlər; "İldırımlı yollar"la baletindən pyeslər [Not]: Skripka, violonçel, alt] ilə fortepiano üçün köçürmə.- B.: Azərnəşr, 1973.- 21, 8, 8, 6 s.

**60. Konsert** [Not]: Skripka ilə orkestr üçün.- Partitura.- M.: Muzıka, 1973.- 77 s.

## 1974

**61. Altı uşaq pyesi** [Not] /Skripka və fortepiano üçün işləyəni Y.Barankina.- M.: Sovetiskiy kompozitor, 1974.- 18 s.

**62. Don Kixot** [Not]: Simfonik qravürlər.-Partitura.- M.: Sovetiskiy kompozitor, 1974.- 75 s.

**63. "Yeddi gözəl"** baletindən gözəllər gözəlinin portreti [Not] //Azərbaycan bəstəkarlarının pyesləri /Tar ilə fortepiano üçün işləyəni Əvəz Rəhmətov.- B., 1974.- S.1-5.

## 1976

**64. Sonata** [Not]: Skripka ilə fortepiano üçün.- M.: Muzıka, 1976.- 27 s.

**65. Vyetnam süitası** [Not]: "Vyetnam" kinofilminə yazılmış musiqidən: Böyük simfonik orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1976.- 95 s.

## 1977

**66. Prelüdiya** [Not]: Alleqro /Y.Ryaets: Fortepiano və bəm qaboy üçün köçürmə.- L.: Muzıka, 1977.- 11 s.

## 1978

**67. Uşaq albomu** [Not]: Fortepiano üçün.-M.: Sovetskiy kompozitor, 1978.- 44 s.

**68. Zamanın bayraqdarı** [Not]: Kantata: Qarışıq xor və böyük simfonik orkestr üçün /Söz. S.Vurğunundur.- M.: Sovetskiy kompozitor, 1978.- 14 s.

**1979**

**69. Anadan olma gününə** marş [Not]: Fortepiano əsərləri.- B., 1979.- 3. s.

**70. Fil və Alabaş** [Not]: Fortepiano əsərləri.- B., 1979.- 4 s.

**71. Fortepiano əsərləri** [Not].- B.: İşıq, 1979.- 91 s.

**72. Hekayə** [Not]: Fortepiano əsərləri.- B., 1979.- S.14.

**73. Qəmli hekayə** [Not]: Fortepiano əsərləri.- B., 1979.- 4 s.

**74. Sülh haqqında pioner mahnısı** [Not] /Xor üçün işləyəni Ə.Cavanşirov.- Kiyev, 1979.- 31. s.

**75. Şən hadisə** [Not]: Fortepiano əsərləri.- B., 1979.- S. 15-18.

**1980**

**76. Gürcüstan təpələrində** [Not]: Fortepiano, skripka və violonçel üçün köçürmə.- B.: İşıq, 1980.- 20 s.

**77. Qara Qarayevin seçilmiş** əsərlərinin fortepiano üçün konsert işləməsi və köçürmələri [Not] /Tərtib edəni və redaktoru K.Səfərəliyeva.- B.: İşıq, 1980.- 96 s.

**78. Mən sizi sevirdim; Gürcüstan təpələrində** [Not]: Fortepiano, skripka və violonçel üçün köçürmə.- B.: İşıq, 1980.- 48 s.

**79. Zamanın bayraqdarı** [Not]: Kantata //Azərbaycan bəstəkarlarının mahnıları: fortepiano ilə oxumaq və xor üçün.- B., 1980.- 3 s.

**1981**

**80. Çılğın qaskoniyalı** [Not]: 3 pərdəli romantik musiqili komediya /Libretto P.Qradovun; E.Rostanın əsərlərinin

motivləri üzrə //Klavir.- M.: Sovetskiy kompozitor, 1981.- 189 s.

**81. Dənizi fəth edənlər** kino filmindən "Gənclik" mahnısı" [Not] //Sovet kino musiqisi. Kinofilmlərdən parçalar: Fortepiano üçün asanlaşdırılmış köçürmələr.- B., 1981.- 9 s.

**82. Xəzər neftçiləri haqqında dastan** kinofilmindən dəniz neftçilərinin mahnısı [Not] //Sovet kino musiqisi: Kinofilmlərdən parçalar: Fortepiano üçün asanlaşdırılmış köçürmələr.- B., 1981.- 7 s.

**83. Leyli və Məcnun** [Not]: Simfonik poema: Böyük simfonik orkestr üçün.- Partitura.- B.: İşıq, 1981.- 51 s.

**1982**

**84. On iki fuqa** [Not]: Fortepiano üçün.- M.: Sovetskiy kompozitor, 1982.- 40 s.

**1983**

**85. Konsert** [Not]: Fortepiano ilə kamera orkestri üçün. Klavir.- M.: Sovetskiy kompozitor, 1983.- 92 s.

**1984**

**86. Qoyya** [Not]: Simfoniya, oğlanlar xoru, qarışıq xor və simfonik orkestr üçün /Q.Qarayev, F.Qarayev.- Partitura.- M.: Sovetskiy kompozitor, 1984.- 55 s.

**1985**

**87. İldırımlı yollarla baletindən** rəqs [Not] //Azərbaycan bəstəkarlarının pyesləri: Tar ilə fortepiano üçün.- B., 1985. - S. 8-14.

**88. Sülh haqqında pioner** mahnısı [Not] /Söz. Z.Cabbarzadənindir //Zaqafqaziya bəstəkarları uşaqlar üçün: Kiçik və orta yaşlı məktəblilər üçün mahnılar.- M.: Muzıka, 1985.- 10 s.

**1987**

**89. Yeddi gözəl** [Not]: Proloqla 3 pərdəli, 8 şəkilli balet Librettosu Y.Slonimskinin, İ.Hidayətzadənin və S.Rəhmanındır; Nizaminin poemaları əsasında Klavir.- B.: İşıq, 1987.- 150 s.

**1988**

**90. Fır-fıra** [Not] //Zaqafqaziya bəstəkarlarının uşaq pyesləri: Fortepiano üçün.- M., 1988.- 56 s.

**91. Hekayə** [Not] //Zaqafqaziya bəstəkarlarının uşaq pyesləri: Fortepiano üçün.- M., 1988.- 53 s.

**1992**

**92. Qızların rəqsi** [Not]: "İldırımlı yollarla" baletindən //Azərbaycan bəstəkarlarının əsərləri: Kamança ilə fortepiano üçün köçürmə.- B., 1992.- 91 s.

## SƏSYAZMALAR

**93. Alban rapsodiyası** [Səsyazma]: İfa ed.: Azərbaycan Dövlət simfonik orkestri; dirijor Niyazi. D-02393.

**94. Çılğın qaskoniyalı** [Səsyazma]: 3 pərdəli romantik musiqili komediya: Montaj. P.Qradovun, E.Rostanın "Sirano de Berjerak" əsərinin motıvləri üzrə pyes; İfa ed.: Moskva teatrları: artist və Ümumittifaq radio və televiziyasının solistləri; sovet mahnı ansamblı; Ümumittifaq radio və televiziyasının estrada-simfonik orkestri; dirijor Y.Silantyev. S-12871-74. D-09053-56.

**95. Don Kixot** [Səsyazma]: simfonik qravürlər /İfa ed.: SSRİ Dövlət simfonik orkestri; dirijor A.Qauk. D-0465-66.

**96. Don Kixot** [Səsyazma]: simfonik qravürlər /İfa ed.: SSRİ Dövlət simfonik orkestri; dirijor A.Qauk. D-011199.

**97. Estrada miniatüri** [Səsyazma] /İfa ed.: T.Əhmədov ad. Azərbaycan radiosunun estrada ansamblı. D-0001407.

**98. Əsərləri** [Səsyazma] /İfa ed.: A.Korsakov, skripka [2]; F.Qasımova, soprano [4, 5]; Ü.Hacıbəyov ad. Azərbaycan Dövlət simfonik orkestri; dirijor K.Abdullayev. S-10 27963 000; S-10 27965 005.

Məzmunu: 1. Simfoniya №1; 2. Konsert: skripka ilə orkestr üçün; 3. Alban rapsodiyası; 4-5. A.Puşkinin sözlərinə yazılmış iki romans: "Mən sizi sevirdim"; "Gürcüstan təpələrində"; 6. "Yeddi gözəl" baletindən vals.

**99. Əsərləri** [Səsyazma] /İfa ed.: SSRİ Dövlət Böyük Teatrın Orkestri; dirijor Niyazi [1]; SSRİ Dövlət Simfonik Orkestri; dirijor A.Qauk [2]; Mərkəzi Televiziya və Ümumittifaq radiosunun böyük simfonik orkestri; dirijor K.Abdullayev. D-09053-56.

Məzmunu: 1. "İldırımlı yollarla" baletindən süita №2; 2. "Don Kixot": simfonik qravürlər; 3. "Leyli və Məcnun": simfonik poema.

**100. Gürçüstan təpələrində** [Səsyazma] /Söz. A.Puşkinindir; Oxuyur Fidan Qasımova, soprano].- qram. valında. D-06519.

